# Ulu Öndərin çağırışına xalq dərhal səs verdi

**Dahi şəxsiyyət Heydər Əliyev dahi lider, müdrik strateq, xalqının sarsılmaz dayağı idi. Ulu öndər bütün varlığı ilə doğma xalqına bağlı idi, həyatını Azərbaycan naminə fədakarlıqla yaşamışdı. İstər keçmiş SSRİ dövründə, istərsə də müstəqillik illərində Heydər Əliyev xalqın inam və sevgisini qazandı, ölkəni tərəqqi yoluna çıxardı. Siyasi sistemdən asılı olmayaraq, hər zaman Azərbaycan naminə çalışdı, millətinin rifahı üçün yorulmadan mübarizə apardı və uzaqgörən siyasəti sayəsində ölkə inkişaf etdi, dünya miqyasında nüfuz qazandı.**

Dövlət xadimi Heydər Əliyevin 1969-cu ildən başladığı böyük inkişaf yolu - Azərbaycanın bugünkü qüdrətinin təməl daşıdır. Məhz onun uzaqgörən siyasəti, əzmkar və yorulmaz fəaliyyəti nəticəsində həmin illərdə milli yüksəlişin əsasları qoyuldu, ölkə tərəqqi yoluna çıxdı. Əgər Heydər Əliyevin hakimiyyəti olmasaydı, bu gün qüdrətli, güclü və müstəqil Azərbaycandan danışmaq mümkün olmazdı. Tarixin yaddaşına əbədi həkk olunmuş faktlar bir daha sübut edir ki, ulu öndərin dəmir iradəsi və strateji baxışı Azərbaycanın müstəqilliyini sarsılmaz və əbədi etdi. Həmin illərə nəzər saldıqda bir daha aydın olur ki, Heydər Əliyev yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın ayaqda qalması üçün hansı çətinliklərlə qarşı-qarşıya qalıb.

90-cı illərin əvvəlləri gənc respublikanın həyatında həlledici məqam idi. O dövrdə ölkə bir tərəfdən Ermənistanın hücumuna məruz qalmışdı. Digər tərəfdən iqtidarı təmsil edənlərin siyasi məharətsizliyi ölkəni çıxılmaz duruma salmışdı. Vətənin taleyindən narahat olan xalq yenidən ümummilli liderə ümid bəslədi. Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışı, həmin dövrdəki fəaliyyəti əsl vətənpərvərlik nümunəsi idi. Xarici təhdidlər, hərbi təcavüz, daxili çaxnaşmalar, sosial və iqtisadi böhran Azərbaycan uçuruma sürükləsə də, ulu öndər bu çətinliklərə sinə gərdi. Ölkəsini uçurumun kənarından xilas etdi. Onun polad iradəsi, müdrik siyasəti qarşısında qiyamlar, sui-qəsdlər, dövlətçiliyimizi beşiyində boğmaq istəyənlərin məkrli planları alt-üst oldu.

1994-cü ildəki dövlət çevrilişinə edilən cəhd aradan qaldırılsa da, 1995-ci ilin martında bu, adisələr yenidən alovlandı. Martın 12-dən 13-nə keçən gecə ölkədə sabitliyi pozmağa çalışan Xüsusi Təyinatlı Polis Dəstəsi (OMON) qiyam qaldırdı. Rövşən və Mahir Cavadov qardaşlarının başçılıq etdiyi bu qruplaşma, əslində, əvvəlcədən - 1994-cü ildən bəri fürsət axtarırdı. Lakin dövlətin gücü və xalqın dəstəyi onların bu cəhdini boşa çıxarmışdı. Həmin vaxt ulu öndər Kopenhagendə BMT-nin Zirvə görüşündə iştirak edirdi. Bunu fürsətə çevirmək istəyənlər üsyana qalxıb dövləti ələ keçirməyə çalışsalar da, buna nail ola bilmədilər. Ölkəyə qayıdan Heydər Əliyev martın 15-də milli televiziya və radio vasitəsilə xalqa müraciət etdi. Ölkə ağır iqtisadi böhranla mübarizə aparır, işğal nəticəsində itirilmiş torpaqların ağrısı, yüz minlərlə məcburi köçkünün taleyi gündəmin əsas məsələsinə çevrilmişdi. Ulu öndər Heydər Əliyev xalqına üzləşdiyi çətinlikləri açıq şəkildə bildirir, görülən işlər barədə vətəndaşları məlumatlandırırdı.

Amma həmin günlərdə Azərbaycan üçün beynəlxalq arenada da vacib bir hadisə baş verdi - Pakistanda mühüm bir Zirvə görüşü keçirildi. On müsəlman ölkəsinin liderləri iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etdilər. Heydər Əliyev bu görüşdə Azərbaycan adına sözünü deməli, ölkənin maraqlarını müdafiə etməli idi. Lakin dövlətin daxilində yaranmış çaxnaşma, təhlükəli vəziyyət bu səfəri mümkünsüz etdi. "Martın 12-dən 13-nə keçən gecə mən oradan qayıtdım və 13-də Pakistana yola düşməli idim. Bu günlərdə İslamabadda da bizim üçün çox əhəmiyyətli olan bir toplantı - on müsəlman ölkəsi başçılarının görüşü keçirilir. Bu, iqtisadiyyatla əlaqədar ənənəvi bir görüşdür. Mən həmin görüşə getməli idim, orada deyiləsi sözlərimiz, müzakirə olunacaq məsələlər var idi", - deyə Heydər Əliyev təəssüflə bildirirdi. Çünki bu Zirvə görüşü Azərbaycan üçün böyük əhəmiyyət daşıyırdı. Buna baxmayaraq, rəsmi nümayəndə heyətimiz ölkəni layiqincə təmsil etdi. Azərbaycan çətinliklər içində olsa da, öz haqq səsini dünyaya çatdırmaq üçün mübarizəsini dayandırmadı.

Xüsusi Təyinatlı Polis Dəstəsinin bəzi üzvləri qanunsuz fəaliyyət göstərir, üsyançılar yalan vədlərlə insanları aldadaraq milli azlıqları hakimiyyətə qarşı qaldırmağa çalışırdılar. Amma onların qarşısında dəmir iradəli bir lider Heydər Əliyev dayanmışdı. Ulu öndər bu təxribatçı cəhdlərə tutarlı cavab verərək Azərbaycan dövlətçiliyinin sarsılmaz və məğlubedilməz olduğunu qəti şəkildə bəyan etdi. Demokratik dəyərlərə sadiqliyini nümayiş etdirərək, dəstə üzvlərini reallığı dərk etməyə, aldandıqlarını qəbul edərək düz yola qayıtmağa çağırdı. "Sizi əfv edəcəyəm", - deyə onların hələ də dönüş etmək imkanı olduğunu bildirdi. Lakin bir məsələni açıq şəkildə ortaya qoydu. Qeyd etdi ki, dövlətçilik, müstəqillik, xalqın iradəsi hər şeydən üstündür. Heydər Əliyevin çağırışına xalq qısa zamanda səs verdi. Milyonlarla vətəndaş Prezidentin və Azərbaycan dövlətçiliyinin müdafiəsinə qalxdı. Xalqın hakimiyyətə olan inamı, iqtidarın xalqa güvəni ölkənin bugünkü inkişafına təkan verən əsas amillərdən birinə çevrildi. Bununla da Heydər Əliyevin uzaqgörənliyi, xalqa inamı və dönməz iradəsi sayəsində dövlət çevrilişinin qarşısı alındı. O, Azərbaycan xalqına dünya standartlarına cavab verən müasir, demokratik və güclü bir dövlət miras qoydu. Bu, tarixə qızıl hərflərlə yazılmış bir qurtuluş və zəfər dastanı oldu.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika.- 2025.- 15 mart (№ 57).- S.6.